2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 yanvar 2020-ci il tarixli 58 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                                                    07 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2019-cu il dekabrın 23-də bələdiyyələrə keçirilmiş seçkilərdə 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəlilabad bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Rafiq Bəhram oğlu və müşahidəçi Şahmarov Əbülfət Ataş oğlunun 67 saylı Cəlilabad şəhər seçki dairəsi dairə seçki komissiyasının 30 dekabr 2019-cu il tarixli 35/315 saylı qərarından verdikləri şikayət üzrə araşdırma apararaq **m ü ə y y ə n e t d i m :**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçilər öz müraciətlərində dairə seçki komissiyasının müvafiq qərarını mübahisələndirmiş və göstərmişlər ki, səsvermənin nəticəsinə uyğun olaraq, qeydə alınmış namizəd Rüstəmov Rafiq Bəhram oğluna verilmiş səslər düzgün hesablanmamışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, şikayətçilər səsvermə günü mübahisələndirdikləri seçki məntəqələrində səsvermənin nəticələrinin hesablanması prosesində şəxsən iştirak etdiklərini iddia etsələr də, lakin eyni vaxtda bütün seçki məntəqələrində müşahidə aparmağın necə mümkün olması sualına cavab verə bilməmişlər.

Araşdırma ilə səsvermə günü 67 saylı Cəlilabad şəhər seçki dairəsinin Cəlilabad bələdiyyəsini əhatə edən 14 seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış və müəyyən edilmişdir ki, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Səslərin sayılmasında hər hansı bir pozuntuya yol verilmədiyi səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər İ.S.Mirzəyev, M.M.Fətullayev, Ə.M.Abdullayev, Z.A.Aslanov, R.Ə.Hüseynov, B.F.Səlimov, İ.Ə.Ələsgərov, E.Ş.İbadov, A.Ə.Nəsirov, Ş.S.Sadatova, V.V.Məmmədov, X.Ş.Mirzəyev, A.Ə.Nəcəfov, bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər Q.Q.Qasımov, B.R.Allahverdiyev, S.X.Ağayev, İ.P.Qasımzadə, Q.A.Ağayev, E.P.Qasımov, Ə.V.Babayev, G.Ə.Məmmədova, V.S.Mahmudov, G.Z.Quliyev, S.M.Əsədov, F.B.Əliyev, R.İ.Hüseynli, H.L.Mirzəyev, seçicilər A.M.Camalov, Q.M.Camalov, İ.R.Qəhrəmanov, A.H.Cəbrayılov, M.M.Muradov, A.A.Qəmbərov,

H.Q.Dövlətov, L.A.Qasımov, İ.Əliyev, O.F.Güləliyev, həmçinin 67 saylı Cəlilabad şəhər seçki dairəsinin seçki məntəqələrinin MnSK üzvləri R.Ş.Həsənzadə, G.G.Fətullayev, V.V.Məmmədzadə, C.A.Əzimov, A.C.Həsənov, P.A.Həsənov, C.D.Nəbiyev, Ə.Qəmbərov, H.A.Mirzəyev, S.F.Feyzullayev, İ.M.Əzizov, Z.H.Şəmiyev, R.Ə.Quliyev, F.İ.Muradov, Ə.A.Xəlilov, S.M.Hüseynov, Y.N.Əliyev, A.Q.Əskərov, Q.Y.Qasımov, N.Nəzərov, E.F.Əsədov, E.Qubadov, A.İ.Ağayev, M.Həsənov, S.S.Quliyev, S.Ş.Adbullu, E.Z.Əzimov, A.A.Ağayev, H.Ə.Astanov, P.X.Əliyev, Z.Seyfullayev, katiblər Ə.Ə.Novruzov, E.S.Vəliyev, N.Ə.Məmmədov, Ə.V.Əliyev, V.İ.Məmmədov, İ.Məmmədli, M.A.Əmiraslanov, Ş.A.Əmiraslanova, E.X.Mirələmov, Ə.Z.Əliyev, Y.M. Süleymanov, Ş.H.Yusubov, V.V.Əzizov, F.F.Babayev, M.Ağayev, M.R.Qurbanov, N.F.Mirzəyev, F.Quliyev, sədrlər T.B.Quliyev, Ş.A.Əsədov, Ə.B.Qəmbərov, Ə.M.Salmanov, Ş.A.Həsənov, X.İ.Əliyev, M.Sultanova, Q.Q.Quliyev, F.H.Ağayev, V.Allahverdiyev, M.Quliyev, P.N.Sadıqovun izahatları ilə təsdiq olunur.

Beləliklə, şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Cəlilabad şəhər seçki dairəsindən Cəlilabad şəhər bələdiyyəsi üzrə qeydə alınmış namizəd Rüstəmov Rafiq Bəhram oğlu və müşahidəçi Şahmarov Əbülfət Ataş oğlunun 04 yanvar 2020-ci il tarixli 58 saylı müraciəti əsassız olduğundan təmin olunmasın, 67 saylı Cəlilabad şəhər seçki dairəsi dairə seçki komissiyasının 30 dekabr 2019-cu il tarixli 35/315 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov